**Bakı xəbərləri**

səh. 334. “qaubiç” (haubitsa): artilleriya silahı; top.

səh. 335. “Milli himn”: qəzetdə “gimn” yazılmışdır.

**Firqələr və cəmiyyətlər**

səh. 336. “Şahtaxtinski”: güman ki, Məhəmməd bəy Əli oğlu Şahtaxtinski nəzərdə tutulur.

səh. 337. “Əli paşa Şıxlinski”: general Əliağa Şıxlinski nəzərdə tutulur.

səh. 338. “8 məhərrəm”: burada tarix hicri təqvimlə verilmişdir; miladi təqvimlə 3 oktyabra uyğundur.

**Azərbaycanda**

səh. 339. “Xocabəyli”: Şahsevənlərin bir tayfası.

“Kür Qaraqaşlı”: qəzetdə kəndin adı təhrif edilmişdir.





**Bazar ertəsi, 17 noyabr 1919-cu il, nömrə 323**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 23 səfərül-müzəffər sənə 1338. 17 təşrini-sani 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 3 manat.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

1919 sənə noyabrın 17-də bazar ertəsi gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

*T-340*

**SİRK “MODERN”**

**Mübarizənin son günləri**

Düşənbə günü noyabrın 17-ndə 1919-ncu ildə bu gün Buyvolovun benefisidir. Bu gün Buyvolov bacardığı fokusları göstərəcəkdir.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

Hamı güləşlər qətidir. 1-nci: Zakoroyko – Buyvolov; 2-nci: Qara Maska – Naməlum; 3-ncü: Gənc Əli – Kalişeviç.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında.

Tamaşa başlanacaq 8-də, tamam olacaqdır 12-də.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

*14053*

**“VOLNI SOYUZ” NƏŞRİYYATI**

1) Noyabr ayının ortasından Tiflisdə həftəlik 16-24 səhifədən ibarət “Na rubeje” adında bir məcmuə çıxır. Məcmuənin məqsədi millətlərin hürr yaşamağını və istiqlaliyyət hüququnu qövlən və feilən [sözdə və əməldə] müdafiə etmək, yeni təşkil olunmuş hökumətlərin və sabiq Rusiya imperatorluq millətlərinin ittifaqı fikri, demokratiyanın mərkəzi irtica və çarizm ilə bahəm mübarizəsi və həmçinin xırda millətlər arasında iqtisadi məqsədlərin əmələ gəlməsi. Məcmuənin sütunlarında yeni təşkil olunmuş hökumətlərin və millətlərin həftəlik xəbərləri veriləcək. Birinci nömrədə Arxangelski, Kruçinin, Tsalikov, Çaykin, Çokayev və qeyri müəlliflərin məqalələri çap olunacaqdır.

**“Union Liber”**

2) Dekabrın əvvəlindən Tiflisdə aylıq dəftərçələr kimi 32-48 səhifədən ibarət Fransa lisanında “Union liber” adında bir məcmuə çıxır. Məcmuə həftəlik “Na rubeje” məsləkində olub, məqsədi yeni təşkil olunmuş hökumətlərin və sabiq Rusiya imperatorluq millətlərin məişətindən və onların demokratik üsul ilə milli amalı yolunda mübarizədə bulunmaqlarından əcnəbi məmləkətlərə xəbər verməkdir.

3) İki əvvəlinci məcmuələrə müvafiq geniş teleqraf informasiyon ilə müxbirləri Türküstanda, Zaqafqaziyada, Şimali Qafqazda, Kubanda, Çernomoryedə, Donda, Ukraynada, Şura hökumətində, Sibiryada və həmçinin Qərbi Avropanın və Yeni Dünyanın [Amerikanın] baş nöqtələrində mövcuddur. Qəzetədə məşhur sosialist xadimləri milli, iqtisadi və beynəlmiləl siyasi məsələlərində iştirak edəcəklərini vədə veriblər. Qəzetənin birinci nömrəsi Tiflisdə yanvarın birində 1920-ci sənədə çıxacaqdır.

*T-341*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

**Məşixətdən**

İdareyi-Məşixəti-İslamiyyənin [Müsəlman Şeyxülislamlıq İdarəsinin] hökmləri ilə, kəndi ərizələrinə görə, işğal etdikləri mənsəblərindən azad və xaric olunurlar:

1) Keçən oktyabrın 21-dən nömrə 25-ci ilə mühərrir Hilal Hüseynzadə;

2) Yenə həman tarixdən nömrə 26-cı ilə digər bir mühərrir Əbdülhüseyn Əkbərzadə;

3) Həman ayın 30-dan nömrə 31-ci ilə Məşixətin hafizi-kütübü (arxivariusu) [arxivçisi] Məhəmmədhənifə Axundzadə,

4) Həman ayın 31-dən nömrə 32-ci ilə Məşixətin kargüzarı Əbdürrəhim Ağa Əbdürrəhimzadə.

Müvəqqətən təyin olunurlar:

5) Mahi-məzkurun [deyilən ayın] 26-dan nömrə 29-cu ilə Şamaxı əhlindən Məşhədi Soltan Məşhədi Əbdüləli oğlu Bədəlzadə məhlul [boş qalan] dəfdərdar (registrator) mənsəbinə;

6) Mahi-məzkurun 28-dən nömrə 30-cu ilə Kərim bəy Cəbrayılzadə mühərrirliyə;

7) İşbu noyabrın 1-dən nömrə 33-cü ilə Məşixət dəftərdarı Məşhədi Soltan Məşhədi Əbdüləli oğlu Bədəlzadə məhlul kargüzar mənsəbinə;

8) Həman tarixdən nömrə 34-cü ilə mühərrir Kərim bəy Cəbrayılzadə məhlul dəftərdar mənsəbinə;

9) Həman tarixdən nömrə 35-ci ilə Bakıda sakin Şamaxı əhlindən İsmayıl Əhmədzadə mühərrir ümuruna [işlərinə].

*Məşixət sədrləri əvəzində:*
*Şeyx Həsən Axund Molla Sadıqzadə,*
*Əbdülxalıq Axundzadə.*

## AZƏRBAYCAN DARÜLFÜNUNUNUN AÇILMASI

Dün [dünən] Azərbaycan Darülfünunu ilk dəfə olaraq açıldı, ilk gündür ki, məşğuliyyətə başladı.

Hərb və inqilab davam eylədiyi müddətcə mədəni, ürfani müəssisələrdən bir çoxu kimi darülfünunlar da dayanmış, darülfünunlar da tətili-məşğuliyyət etmişdi.

Bir məmləkətdə, bir millətin həyati-siyasiyyə və milliyyəsində darülfünunlar, akademiyaların hüsula gətirəcəkləri tərəqqi və təcəddüdün [yenilənmənin] dərəcə və meyarı təyin ediləmməz. Tarixdə Atina [Afina] Darülfünununun yeni bir Yunanıstan yaratdığını kim inkar edə bilər?





Bir əsr əvvəl Fransanı aləmşümul təqəllüb [dəyişilmə, çevrilmə] və təkamülə atan Sorbon Darülfününu, Sorbon Darülfünununda bir səlsəbili-həmiyyətlə [böyük bir fədakarlıqla] çalışan müdərris və mütədərrislər [müəllim və tələbələr] deyilmiydi?

Almanları 1806 fəlakətindən sonra yenidən şəhrahi-siyasət və hərbə [siyasət və müharibə yoluna] hazırlayan və Napoleondan qəhhar [qəhredici, məhvedici] bir intiqam alan Berlin və Heydelberq darülfünunları və hər iki darülfünunun böyük simaları Kant və Fixtenin dərsləri olmamışmıdır?

İngiltərə, Amerika kimi, darülfünunları birər buxar makinası halına girmiş dövlətlər, yalnız məmləkətləri ehya etməklə [canlandırmaqla] qalmayırlar, yeni məmləkətlər, yeni yurdlar da kəşf edirlər.

Arximedin müvazinə qanunları, Qalileyin elmi-ərzi [dünya haqqında elmi], Dekartın riyaziyyatı, Volter və Jan-Jak Russonun elmi-ictimaisi [sosiologiyası], Klod Bernarın fiziolojisi, Kantın düşünmə elminin heyəti-əsliyyəsi [bütün prinsipləri] ilə həyatda tətbiq və təhqiqini (realizasyonunu) təmin edən darülfünunlar olmuş, darülfünunların o saf və nəzih məsaisi [pak səyi, əməyi] təşkil etmişdir.

Fərdlərin qüvveyi-xəllaqiyyəsi [yaradıcı gücü] yeni fərdiyyətlər yaratdığı kimi, darülfünunların nəsimiyyəti-elmiyyə və fəlsəfiyyəsi [elm və fəlsəfə havası, mühiti] də yeni millətlər ixtira edir.

Yeni millət – yeni elm, yeni fəlsəfə demək isə, hər darülfünunun da yeni bir məbəd olması icab edər. Yeni və gənc bir millət üçün hər surətlə yeni bir fikri-elmi və fəlsəfi [elmi və fəlsəfi fikir] lazımdır.

Deyirlər ki, elm beynəlmiləldir. Bu nəzəriyyəni milliyyət ilə beynəlmiləliyyət arasındakı münasibət kimi qəbul edərsək, doğrudur. Fəqət mücərrədən elmin beynəlmiləliyyəti demək, siyasi məfhumlarda qiymət verilən mücərrəd (abstraksiyon) beynəlmiləliyyət kimi isə, tamamilə xəta-aluddur [başdan-ayağa yanlışdır].

Alman elmi, alman sənaəti [sənayesi], alman fəlsəfəsi əgər beynəlmiləliyyətdə bir mövqe sahibi olmuşsa, hər şeydən əvvəl alman milləti ilə birlikdə tərəqqi və inkişaf etdiyindən dolayıdır. Yoxsa alman elmi beynəlmiləliyyət üçün doğrudan-doğruya çalışmamış, doğrudan-doğruya beynəlmiləliyyəti istihdaf etməmişdir [hədəf seçməmişdir].

Zamanımızda hər şeyin bir üsulu (metodu) olduğu kimi, milliyyət və beynəlmiləliyyətin də bir metodu vardır. Nəzəriyyələrin qiymətsizliyi ondadır ki, metoddan, üsuldan xaric olaraq həyatda cari olmaqdadır [icra edilməkdədir]. Elm və fənn əvvəla millidir, çünki hər millətin ehtiyacati-mədəniyyə və milliyyəsi ilə doğmuşdur. Yalnız ilk doğması ilə böyüməsi arasında – milliyyətin beynəlmiləliyyətlə olan münasibatı kimi bir beynəlmiləliyyət istiqamətini tutmaqdadır.

İştə, biz yeni Azərbaycan darülfünununa bu nöqteyi-nəzərlə baxarsaq, darülfünunumuzun bir Azərbaycan darülfünunu olmasını təmin edəcək vasitələri də tədricən əldə edəriz.

Azərbaycan darülfünunu, əlbəttə bir türk darülfünunudur. Çünki türk milləti, türk parlamanı, türk hökuməti tərəfindən türk gəncliyi üçün açılmışdır.

Buradan nəşət edəcək [çıxacaq, məzun olacaq] əfəndilər, hər şeydən əvvəl türkcə düşünməyi, türkcə alim və arif olmağı özləri üçün milli və vətəni bir vəzifəədd [hesab] etməlidirlər. Darülfünunumuzun idealı, heç şübhəsiz bütün elm və fənləri türkcələşdirmək olmalı, türk professor və tələbələrini çoxaltmalıdır. Bunu da təmin edəcək vasitələr təbiidir ki, əvvəla, xüsusi fərdimizin məsaisindən başlar, xüsusi fərdlərin təşəbbüsündən çıxar.

Türk və Şərq aləmində o qədər çox mənabeyi-elm və fənn [elm və fənn mənbələri] vardır ki, bu gün bunlar mətruk qalmış [tərk edilmiş], nisyana buraxılmış [unudulmuş] kimidir. Bunun da səbəbi bittəb [əlbəttə] ondadır ki, türk və Şərq mühiti-ürfanı Qərb və Avropa kimi cavan bir həyat ilə amil deyildir. Əgər türk elm və ürfanı yalnız bir fəaliyyəti-həyatiyyə göstərsə, Qərb və Avropa mühitindən heç bir zaman əskik qalammaz.

Türk mühiti-ürfaniyyəsində, yaxud Şərq aləmi-mədəniyyətində heç bir şeyin mövcud olmadığını söyləmək həqiqətgirizlikdir [həqiqətdən qaçmaqdır]. Türkdə və Şərqdə pək çox şeylər vardır. Fəqət bir şey yoxdur ki, o da həyat.

İştə, Azərbaycan türk aləmində həyatfəza [həyat verən, canlandıran] bir mühiti təşkil etməsi etibarilə, bəlkə başqa türk mühitlərində qiymətsiz, etinasız qalmış asari-mədəni və ürfanini [mədəniyyət və ürfan əsərlərini, nişanələrini] yenidən ehya edər [dirildər], yenidən əla eylər [ucaldar].

Mühitimizdə darülfünunun açılmasının bir böyük əhəmiyyət və qiyməti də ondadır ki, darülfünunlar xaricən millət və camaat arasında tərbiyəvi bir təsiri haizdir [daşıyır].

Sabiq Rusiyada Moskva, Petroqrad, Kiyev, Odessa və sair böyük şəhərlərdəki darülfünunların mövcud olması ilə orada mədəni və siyasi təarüflərin [tanışlıqların; ünsiyyətlərin] artmasına təsiri olmuşdur. Moskva və Petroqrad həmişə bir mərkəzi-siyasət idi, çünki ən böyük müəssisati-elmiyyə [elm qurumları] oralarda idi.

Darülfünunlar camaatın tərbiyeyi-fikriyyə və əxlaqiyyəsinə təbii bir surətdə təsir edir. Hətta məbuslar, nazirlər, qəzetəçilər, mühərrirlər də darülfünunun ilhamati-ürfaniyyə və mədəniyyəsindən hər zaman istifadə etmişlər. Paytaxtlarda darülfünunların mövcudiyyətilə düşüncələr də tərəqqipərvəranə bir surətdə dəyişikliyə məruz qalmışdır.

Darülfünunun bu növ ürfani təsirinə həpsindən daha ziyadə biz möhtacız.

Çünki bizim artıq bir siyasi həyatımız, həm də olduqca mühüm siyasi bir sahəmiz açılıb başladı.

Türkiyədə 10 Təmmuz inqilabından sonra təcdid və təkmil edilib [yenilənib və təkmilləşdirilib] də yeni bir həyata başlayan İstanbul Darülfünunu paytaxtın hər dürlü təhəvvülat və təkamülati-mədəniyyə və siyasiyyəsinə [mədəni və siyasi dəyişiklik və təkamülünə] amil olmuş, Osmanlı türklərinin həyəcan və hərakati-milliyyəsinə böyük təsirlər hüsula gərtirmişdir.

Bizdə də, iştə darülfünunun həyati-məşğuliyyətə başlaması tarixi olan 15 noyabrda bu mədəni və ürfani təsirlərlə məşhun [dolu] olaraq, əlbəttə həyati-





milliyyə və ümumiyyəmizdə yeni bir tərəqqi dövrünün açılmasının bir ibtidası [başlanğıcı] olacaqdır.

Bu cəhətlə, darülfünunun ilk dəfə məşğuliyyətə başlamasını səmimiyyətlə təbrik edir, gənc tələbələrimizə və müqtədir professorlarımıza da müvəffəqiyyət diləriz.

*Ə[hməd] H[əmdi] [Qaraağazadə]*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

***13 noyabr iclası***

İclas Həsən bəy Ağayevin sədarəti, Əhməd Cövdətin katibliyi ilə saat 12:35 dəqiqədə açılır. Sədr ruznameyi-müzakiratı [müzakirə gündəliyini] elan edir:

1) Şuşa şəhərində müftə olaraq bir hökumət xəstəxanasının güşadı [açılması] haqqında qanun layihəsi.

Məruzəçi: Qara bəy Əliverdili.

2) Ünas edadiyyələrində [qız liseylərində] mürəbbi [tərbiyəçi] müavini vəzifəsi təsisi xüsusunda qanun layihəsi.

Məruzəçi: Əhməd Cövdət.

3) Azərbaycanın bəzi nöqtələrində şal, xalı və başqa əşyalar toxunmaqdan ötrü iş evlərinin güşadı üçün 3,694,000 rublə buraxılması haqqında qanun layihəsi.

Məruzəçi: Muxtar Əfəndizadə.

4) Daxiliyyə Nəzarətinin ştatası və böyüməyi münasibətilə həmin Nəzarətə 23,800 rublə buraxılması haqqında qanun layihəsi.

Məruzəçi: Qara bay Əliverdili.

5) Sosialistlər fraksiyonunun sorğusu və daxil olmuş vərəqələr.

O cümlədən Parlaman üzvü Hacı Əli Qasımovdan gəlmiş bir teleqrafda xəstəliyi yaxşı olmadığından 15 gün daha məzuniyyət verilməsi istənilir.

Bu xüsusda danışmaq istəyən olmadığından, 15 gün də məzuniyyət verilir.

Növbədəki birinci məsələyə keçilir.

**Qara bəy Əliverdili** məruzəçi sifəti ilə kürsiyi-xitabətə çıxaraq, Şuşa şəhərində müftə olaraq hökumət xəstəxanası açılması barəsində izahat verir. Deyir:

Şuşa şəhəri mərkəz olduğundan, orada məccani [pulsuz; müftə] bir xəstəxana açmağa ehtiyac vardır. Sabiqdə şəhər idarəsi tərəfindən açılmış bir xəstəxana var idi. Lakin sonradan bu, camaatın ehtiyacını təmin etmədi. İndi hökumət orada bir xəstəxana açmaq istəyir.

Bu xəstəxana 30 nəfərlik olacaqdır. Bunun üçün iyul ayından sənə ibtidasına [başına] qədər 421,300 manat xərc istənilir.

Sonra məruzəçi tərtib edilən smetanı oxuyur. Kəndi tərəfindən xahiş edir ki, 1920-ci sənədən başlayaraq həmin xəstəxana 50 nəfərlik olsun.

**Sultanməcid Qənizadə** – Qanun layihəsində, açılacaq xəstəxananın 30 nəfər üçün olduğunu komisyon qəbul etməyib, 50 nəfərlik olmasını arzu etməsinə işarə edərək deyir ki, 30 nəfərlə 50 nəfər arasındakı xərcin təfavütü bir o qədər olmayacaqdır. Binaənileyh [ona görə], xəstəxana 50 nəfərlik olsun.

**Müseyib bəy Axıcanov** – Sultanməcidin təklifini qəbul etdiyini söyləyir. Əlavə olaraq, mümkün olarsa bir ambulatoriya açılmasını da təklif edir.

**Bəhram bay Axundov** – Deyir bilmək istəyir ki, açılacaq xəstəxanada nə kimi naxoşluqlar üçün yataqlar olacaq? Əlavə, işarə edir ki, yayda oraya bir çox ətrafdan adam toplanır. Orada bir çox xəstəliklər olur. Təklif edir ki, 50 nəfərlik xəstəxana layihəsini qəbul etdikdə, orada bir göz xəstəliyi doktoru da bulundurulsun.

**Ağabəyov Rza bəy** – Şuşa şəhərinin xəstəxanaya ehtiyacı olduğunu etiraf edir. Deyir ki:

Kimsə bunu inkar etməz. Hökumət orada 30 nəfərlik bir xəstəxana açılmasını qərara almış, komisyon üzvlərindən birisi hökumətə qeyri-rəsmi surətdə müraciət edib, əgər bu xəstəxana 50 nəfər üçün açılacaq olarsa nə qədər xərci olduğunu sormuşdur.

Təklif edir ki, hökumətin göstərdiyi surətdə indilik 30 nəfərlik xəstəxananın layihəsi qəbul edilsin, sonra icab edərsə [lazım gələrsə] yenidən o xəstəxananı böyütmək olur.

Son söz məruzəçiyə verilir. Məruzəçi təkrar edir ki, əgər xəstəxana 50 nəfər üçün açılacaq olarsa, xalq daha artıq istifadə edər. Binaənileyh [ona görə], təklif edir ki, xəstəxana 50 nəfər üçün açılsın.

Sədr layiheyi-qanuniyyənin 2-ci qiraətinə keçməsini səsə qoyur. Etiraz olmadığından, maddəbəmaddə oxunmağa başlayır. Layiheyi-qanuniyyə qəbul edilir.

Məsələdə bir qədər anlaşılmamazlıq olduğundan, sədr izahat verir. Deyir:

Qanun layihəsi 30 nəfərlik bir xəstəxana üçün tərtib edilmişdir. Komisyon arzu etmişdir ki, 1920-ci sənədən başlayaraq bu xəstəxana 50 nəfərlik olsun. Ona görə, indilik qanun layihəsi 30 nəfərlik qəbul edilir. Layihənin 3-cü qiraətində həmin 50 nəfərlik olmaq arzusu qanun layihəsinə əlavə edilər.

Katib **Mehdi bəy [Hacınski]** qanun layihəsinə əlavə olan xəstəxana xidmətçiləri və doktorları smetasını oxuyur.

**Rza Qaraşarov** – Nitqində deyir ki:

Məruzəçi dedi ki, bu smeta 6 ay bundan əvvəl yazılmış. Əlbəttə ki, 6 ay bundan əvvəlki qiymətlərlə indiki qiymətlər arasında böyük təfavüt vardır. Smetada hər xəstə üçün gündəlik 20 manat xərc istənilir, indiki halda bir xəstəni 20 manat ilə yaşatmaq mümkünmüdür?

Buna görə təklif edir, layihə yenidən komisyona qaytarılıb, bu rəqəmlərə baxılsın, yeni rəqəmlər göstərilsin.

**Sultanməcid Qənizadə** – Qaraşarovun təklifi ilə razı olur. Layihənin komisyona qaytarılmasını istəyir. 1920-ci il üçün 50 nəfərlik xəstə üçün layihə hazırlayıb təqdim edilməsini ayrıca arzu edir.

**Mustafa Mahmudov** – Nitqində deyir ki:

Bu layihəni geri göndərməyə ehtiyac yoxdur. Çünki bu xəstəxana açılmış, lazım olan xidmətçilər tutulmuş, hazırda fəaliyyətlərində davam edirlər. Bunun üçün il axırına da bir ay yarım qalmışdır. Bizdən istənilən paranı biz buraxmalıyıq. Görünür ki, həman para onlara kifayət edir. Əgər etməzsə, o zaman ayrıca bizdən para istərlər. Vəqta ki, istəməyirlər, bu surətdə biz haman qanun layihəsini qəbul etməliyiz.

**Əliheydər Qarayev** – Nitqində təklif edir ki, bu smeta ilə xəstələrə əlac edə bilmədiyimizdən, smeta komisyona qaytarılıb yenidən baxılmalıdır.





**Doktor Ləmbəranski** – Nitqində deyir ki:

Bu xəstəxananı bir neçə ay əvvəl mən açıb bir smeta hazırlamışdım. O smetada hər xəstə üçün 27 manat para istənilirdi. Nəzarət buna baxıb bir qədər ixtisar etdi. Bu, 6 ay bundan irəli idi.

Natiq təklif edir ki, bu qanun layihəsi qəbul edilsin.

**Mustafa Mahmudov** – Parlamanın vəzifəsi Nəzarət tərəfindən gələn layihələri nəzərdən keçirməkdir. Maliyyə-Büdcə komisyonu da Parlamanın üzvlərindən mütəşəkkil olduğundan, kiçik bir parlamandır. Orada firqələrin də nümayəndələri var. O kiçik parlaman bunu qəbul edib bizə təqdim edir, xəstəxana də açılmışdır. Biz də onu qəbul etməliyiz. Bu surətdə yeni təkliflər edib onu geri qaytarmaq işi təxirə salmaqdan başqa bir şey deyildir. Binaənileyh, təklif edir ki, qanun layihəsi qəbul edilsin.

*Bitmədi*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Azərbaycan simsiz mövqifi tərəfindən qəbul edilmişdir)*

**Baltik səvahili hökumətləri ilə müzakirə**

Moskva - Təşrini-saninin [noyabrın] 14-də [Maksim] Litvinov Baltik səvahili [sahilləri] hökumətləri ilə rəhn saxlanılmışlarla üsəra [əsirlər] mübadiləsi haqqında müzakirədə bulunmaqdan ötrü Şura Rusiya hökumətinin nümayəndəsi sifəti ilə Moskvadan Estlandiyaya azim oldu [Estoniyaya yola düşdü]. Buradan İngiltərə hökumətinin rizası ilə Daniya [Danimarka] hökuməti ilə hərbi və mülki əsirlərin mübadilə edilməsi haqqında müzakirədə bulunmaqdan ötrü Daniyaya gedəcəkdir.

**Mətbəə əmələlərinin tətili**

N. ordusunun qərargahı. Yaponiya teleqraf acentəliyinin məlumatına nəzərən, Tokioda mətbəə əmələlərinin tətilindən naşi [ötrü] 30 qəzetə nəşr edilməmişdir. Tətilçilər iş gününün 8 saat olmasını və muzdlarının artırılmasını tələb edirlər.

**İşsizlər**

Minskdə 60 min adam işsiz qalmışdır. Lehistanlılar [polyaklar] rusları leh [polyak] lisanını bilmədikləri üçün xidmətlərindən çıxarırlar.

*(İngiltərə mətbuatı)*

**Rusiyaya İngiltərə səfiri**

Xariciyyə İşləri Nəzarəti xəbər verir ki, Məclisi-Məbusan üzvü mister O'Qreydi mülki və əsgəri əsirlərin mübadiləsi haqqında Şura Rusiya hökuməti nümayəndəsi Litvinov ilə müzakirədə bulunmaqdan ötrü Kopenhaqa gedir.

Hərbiyyə idarəsi xəbər verir ki, Riqanın şimal və qərbində litvalılar Müttəfiq gəmilərinin bombardmanı altında Dvina nəhri sahilinin 10 mil qərbindəki xətlərə qədər hərəkət etmiş və şəhərin yaxınlığında olan Bermont qoşunlarını sıxışdırıb iki top, neçə mitralyoz və bir qədər Almaniya əsirləri almışdırlar.

**İtaliya mətbuatının məlumatı**

İtaliya ilə Almaniya arasında ticarət əlaqələri Nemes Avstriyası, Cənub Slovak və Çex-Slovak vasitələri ilə aparılacağı mümkündür. Vükəla Şurası [Nazirlər Kabineti] Romada bir neçə ticarət işləri təşkilindən ötrü bir milyon lirə təxsis etmişdir [ayırmışdır].

Romaniya - İtaliya ticarət müahidənaməsi [sazişi] hər iki hökumətin rizası ilə uzadılmışdır.

*(Gürcü Teleqraf Agentəliyindən)*

**Müttəfiqlər zabitlər[in]dən Macarıstan jandarmaları**

Ali Şura Müttəfiqlər zabitlərinin Macarıstanda polis və jandarma xidmətlərini aparmaq üçün dəvət ediləcəklərini qərara almışdır.

**Sülh Konfransı işləri**

Sülh Konfransının Amerika və İngiltərə mürəxxəsləri [nümayəndələri] özlərinin kanuni-əvvəl əvaxirində [dekabrın axırlarında] Fransadan gedəcəklərini Ali Şuraya bildirmişlərdir. Bundan Sülh Konfransı işlərinin həman vaxta qədər tamam olacağını söyləyirlər.

**Almaniya mətbuatı**

Beynəlmüttəfiqin [Müttəfiqlərarası] komissiyasının birinci görüşləri Tilzitdə olacaqdır. Buraya qərbi rus ordusunun qərargah rəisi və müstəqil mahalların nümayəndələri dəvət edilirlər. Bunların səlamətliyi təmin edilmişdir.

**Almaniya mürəxxəsəsi Parisdə**

Bir neçə açıq məsələləri təsviyə etmək [aradan qaldırmaq] məqsədi ilə Parisə bir Almaniya mürəxxəsəsi [nümayəndəsi] azim olmuşdur [yola düşmüşdür].

*(Ermənistan Teleqraf Agentəliyindən)*

**Qarakilsədə darülfünun güşadı**

Qarakilsədə külli əhali olduğu halda, camaat darülfünununun [universitetinin] təntənəli rəsmi-güşadı [açılış mərasimi] vaqe oldu.

**Qarakilsədə şüşə zavodu**

Qarakilsə cəmiyyəti məşhur tacirlərdən Mailova şüşə zavodu inşasından ötrü bir uçastok yer güzəşt etmişdir. İnşaat və hazırlıq işləri varid olmuş [gəlmiş] mühəndislər tərəfindən aparılmaqdadır.

*(Qafqaziyadakı Müttəfiqlər heyətinin radio xəbərləri)*

**Yuxarı Sileziyada amerikalılar**

Nyu-Yorkdan Yuxarı Sileziyaya 5 min Amerika qoşunu göndərilmişdir. Bu qoşunun ərzaq və mühimmati-hərbiyyə təchizi üçün Dansiq intixab edilmişdir [seçilmişdir].

**Suriya**

Şahzadə Feyzulla Suriyanı idarə üçün Londonda daimi bir komissiya təşkil edilməsindən ötrü İngiltərə hökumətinə Hicazdan bir təklifdə bulunmuşdur. Bu komitəyə İngiltərə və Fransa, Cəmahiri-Müttəfiqə [Birləşmiş Ştatlar], başqaları və bizzat [şəxsən] Feyzulla daxil olacaqdır.





*(İtaliya heyəti xəbərləri)*

**Şura hökumətinin sülh şəraiti**

Romada nəşr olunan "Tribuna" qəzetəsi Şura hökuməti tərəfindən təklif edilən sülh şəraitini eynilə dərc etmişdir.

**Roma-Afina**

Roma ilə Afina arasında olan fasilənin [məsafənin] əskilməsi qəsdi ilə yunan hökuməti Valona-Kalakomba arasında dəmiryol xətti inşa etmək fikrindədir.

**SÜLH ƏTRAFINDA**

*(Amerika xəbərləri)*

**Sülh Konfransında**

Amerika sülh mürəxxəsləri [nümayəndələri] tez zamanda geriyə qayıdacaqları barəsində rəsmi bəyanat verdikdən sonra, Amerikanı müttəhim edirlər ki, onun bayramlaradək Sülh Konfransı işlərini bitirmək üçün etdiyi israrlı arzusu saiqəsi [səbəbi] ilə bəşəriyyətin fəlakət və əziyyətlərinə tez zamanda intəha qonulammayacaqdır.

İngilislər istəyirlər ki, Sülh Konfransı təbii ölüm ilə ölsün. Lakin Llyod Corc isə əvvəlinci olaraq söyləmişdi ki, Avstriya və Bolqariya müahidənamələrinə [sazişlərinə] baxılmayınca, Konfransı buraxmaq tezdir.

Fransız və italyanlar istəyirlər ki, Məclisi-Ali iclaslarını Türkiyə müahidənaməsi müzakiratı bitməyincəyə qədər davam etdirsinlər.

Sülh Konfransının buraxılması məsələsində Amerikanın qərarı bərvəchiatidir [aşağıdakı kimidir]: Bolqariya müahidənaməsi 10 gün zərfində imza edilir. Macarıstan müahidənaməsi hazırdır, ancaq onu macarlara təslim etmək işi qalır. Mütəbaqi [qalan] məsələləri də xariciyyə nazirlərinin göstərməsi ilə fəaliyyətdə bulunan səfarətlər müzakirə edə bilərlər.

Amerikanlar Rusiya məsələsinin şimdilikdə mövqeyi-müzakirəyə qonulmasının mümkün olammayacağında israr edirlər.

Yalnız Fransa hökumətinin rəisi Məclisi-Alidə iştirak edir və onun üçün bu əsas olaraq xidmət edə bilər ki, Məclisi-Ali cələsələrinin [iclaslarının] davamını istəsin.

**Sülh nə vaxt olacaq**

Daniya hökuməti Londra və Parisdən soruşmuşdur ki, sülh nə vaxt mövqeyi-icraya qonulacaqdır? Hər ikisi də cavab vermişlər ki, vaxt müəyyən etmək mümkün deyildir.

**Türkiyə Trakiya-Adriatik məsələsi**

Hal-hazırda Türkiyə Trakiya-Adriatik məsələlərini həll etmək mümkün deyildir. Şimdilikdə nə Fransa və nə də İngiltərə bu məsələlər barəsində müzakirata başlamayacaqlardır. Amerika da həmçinin bu məsələləri həll etmədən kəndisini saxlayır.

Sülh müahidənaməsi Amerika Məclisi-Əyanında [Senatında] imza edilməsi səbirsizliklə bəklənilir. Ehtimal edirlər ki, hərgah müahidənamə təhdid ilə [məhdudiyyətlə] qəbul edilərsə, o zaman müahidənamənin tamamilə qəbul edilməsinə heç bir təfavütü ola bilməz.

## QƏZETƏLƏRDƏN

**İngiltərə hökumətini tənqid**

"Mançester Qardian" qəzetəsi böyük bir məqalə yazaraq, Lloyd Corc hökuməti[ni] və onun Rusiyada təqib etdiyi siyasəti tənqid edir və deyir ki:

*"Doğru [və] açıq olmaq lazımdır. Biz Rusiya hökumətini rəsmən tanımadığımız halda, nə haqla Rusiyada müharibə ediriz? Nasıl ki, hökumət əzasından [üzvlərindən] bəziləri iqrar [təsdiq; etiraf] edirlər, əgər biz Rusiya ilə müharib [döyüşən] vəziyyətdə deyilsək, o zaman insanları öldürməyə və rəsmi surətdə müharibə elan etmədiyimiz halda onları abluka [blokada] altına alaraq aclığa məhkum etməyə nə haqqımız vardır? Qətldə davam etmədən və ablukaya başlamadan irəli, lazım idi ki, hökumət doğru və açıqcasına Parlamanda izahat verəydi. Müttəfiqlər öz qüvvələrinə mütməin [arxayın] deyillərdir. Bitərəf məmləkətlər isə Şura hökumətinin abluka altında elan edilməsinə açıqcasına olaraq hüsn-təvəccöh göstərməyirlər. Müttəfiqlər istəyirlər ki, Rusiya ablukasına iştirak etmək üçün Almaniyanı da məcbur etsinlər. Ədalət və Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] əsasları üzərinə vəz edilmiş [qurulmuş] haqşünaslıq nərədə qalır?"*

Qəzetə, məqaləsinin axırını şu sözlərlə xülasə edir:

*"Əgər şimdiki hökumət başqa bir şeyə müstəid [qabil] deyilsə, qoy, getsin və yerini digər bir kabinəyə güzəşt etsin."*

**Almaniyada**

- 12 təşrini-sanidə Berlində böyük mitinqlər toplanaraq Almaniya əsirlərinin Fransada saxlanılmasına şiddətli etirazlar olunmuş və rəsmi dairələrdən tələb edilmişdir ki, qışın soyuqlu günləri yetişincəyə qədər Fransada qalan Almaniya hərbi əsirlərinin vətənlərinə qayıtması üçün təşəbbüsatda bulunulsun. Yenə bu münasibətlə bazar günü 30 etiraz mitinqləri toplanacaqdır.

- Almaniya mətbuatı əhalinin nəzəri-diqqətini Fransa Maliyyə nazirinin hərəkatına yenidən cəlb edərək yazır ki, o, Almanya çocuqlarının südünü kəsərək Fransa çocuqları qayğısına qalır və onları birinci sırada tutur. Fransa Maliyyə naziri 90 min inək tələb etməklə, Almaniya çocuqlarını yeməkdən məhrum etmək istəyir, halbuki başqa məmləkətlərdən Fransa asanlıqca inək bula bilər.

**Fəlakətli Vyana**

Vyana darüttəvəllüdündə [doğumxanasında] bir qaç büsbütün sağlam çocuqlar soyuqdan ölmüşlərdir. Darüttəvəllüddə olan baş həkim xəbər verir ki, soyuqda yatmış qadınların əhvalı fəlakətlidir. Əlləri üzərində övladlarının soyuqdan ölməsini görən anaların nalələri insanın qəlbini partladır.

## TÜRKİYƏDƏ

**Çürüksulu Mahmud paşanın bəyanatı**

Əyan əzasından [üzvlərindən] və sabiq nüzzardan [nazirlərdən] müşir [marşal] Çürüksulu Mahmud paşanın İstanbul qəzetələrində görülən bəyanatını qismən bizim müqəddəratımıza dəxi aid olduğundan, məsul bir türk siyasət ərinin fikri olmaq üzrə aşağıya dərc ediriz.

Mahmud paşa əlyövm [bu gün] Sülh Konfransına dəvətə intizar edilməkdə olduğunu və bu dəvətin yaxında vüqu bulması təmənni edildiyini söylədikdən sonra, Türkiyənin müstəqbəl [gələcəkdəki] hüdudları haqqında atidəki [aşağıdakı] bəyanatda bulunmuşdur:

*"Əcnəbi mətbuatı tərəfindən vaqe olan nəşriyyata nəzərən, Ərəbistan vilayatı [vilayətləri] hökuməti-Osmaniyyədən ayrılmaqdadır. Mərkəzi Erivan olmaq üzrə müstəqil bir Erməni Cümhuriyyəti təşkili də bir əmri-vaqe [fakt] olmuşdur. Ermənilərin mütalibati-müfritəsini [ifrat tələblərini] qəbul etməksizin, kəndilərinə bir təshihi-hüdud [sərhəd düzəlişi] bəxş edilə bilər. Sərbəst bir liman halına vəz olunacaq [halına gətiriləcək] Batum Ermənistan ilə Azərbaycan və Gürcü cümhuriyyətləri üçün dəniz üzərində bir məxrəci-təbii [təbii bir çıxış yeri] olacaqdır. Bu məmləkətləri federasiyon şəklində bir cümhuriyyət halına gətirmək məqul bir surəti-təsviyə [ağlabatan bir həll yolu] olar.*

*Trakiyaya gəlincə, bolqarlardan alınan ərazi üzərində vücuda gətirilən "etat tampon" [bufer dövlət] bizim xoşumuza getməyəcək bir şey deyildir. Şərqi Trakiya türkdür və Vilson əsaslarına tövfiqən [uyğun olaraq], türk qalmalıdır.*

*İzmir vilayəti haqqında heç bir müsaidədə bulunammayız. Buralardakı hüququmuz qeyri-qabili-izalədir [aradan qaldırıla bilməz]. İzmirə sahib olmaq məmləkət üçün bir zərurəti-həyatiyyədir. Əcnəbilər əleyhində heç bir mahiyyəti haiz olmayan [mahiyyət daşımayan] hərəkati-milliyyə heyni-vüqusunda [meydana gəldiyi anda] qəti olacağı zənn edilən yunan işğalının doğrudan-doğruya nəticəsidir."*

Türkiyənin müstəqbəl [gələcəkdəki] idareyi-siyasiyyəsi haqqında paşa bərvəchi-ati [aşağıdakı kimi] bəyanatda bulunmuşdur:

*"Düvəli-müəzzəmə [böyük dövlətlər] tərəfindən tələb ediləcək bilcümlə [bütün] təminat əta edildikdən sonra düvəli-məzkurənin [deyilən dövlətlərin] birər müşavir və müavin [məşvərətçi və köməkçi] vəzifəsini ifa etmələrini arzu ediriz.*

*Sülh Konfransı bir vəkalət icrasını [başqa bir ölkənin vəkillik etməsini] bizzat nəzəri-mülahizəyə aldığı cəhətlə, biz də bunun dərəceyi-imkanını tədqiqə məcbur olduq. Fransa və İngiltərə bu işi dəröhdə etmək [öhdələrinə götürmək] istəmədikləri və yaxud dəröhdə edəmmədikləri üçün Sülh Konfransı Amerikaya müraciət etmişdir. Bizə gəlincə, bizcə Amerikanın müavinəti təyin ediləcək bəzi şərait təhtində [bəzi şərtlər altında] mümkünül-qəbuldur [qəbul edilə biləndir]. Məmafih [bununla belə], Amerika Konqresi qərarını dərmiyan etmədən [bildirmədən] əvvəl, bu babda heç bir təxmində bulunmaq mümkün deyildir. Beynəlmiləl müraqibədə [nəzarətdə] gərək hüquqi və gərək iqtisadi nüqat [nöqtələr] nəzərimizdə bir çox müşkülati-tətbiqiyyəni haizdir [əməli çətinliklərə malikdir]."*

**Mustafa Kamal paşanın bəyanatı**

Anadolu və Rumeli Müdafieyi-Hüquq Cəmiyyətləri Heyəti-Təmsiliyyəsi rəisi

Mustafa Kamal paşa İstanbulda intişar edən [yayımlanan] qəzetələrdə Sivas müxabirlərindən nəqlən aşağıdakı bəyanatda bulunmuşdur.

Mustafa Kamal paşa deyir ki:

*"Məmləkətimizin hər qismində icrayi-təsir etmiş olan eyni əsbab [səbəblər], eyni məqsəd uğrunda hər yerdə təşkilati-milliyyə vücuda gətirilməsini intac etmiş [nəticəsini doğurmuş] və nəhayət, bütün bu mütəfərriq [dağınıq, ayrı-ayrı] təşkilat ittihad edərək [birləşərək] bütün məmləkətə şamil olmuşdur.*

*Əsas məqsədimiz vətən və milləti qurtarmaq olduğuna görə, qarşımızda iki müxasim zümrə [iki düşmən qrup] bulunması pək təbii idi. Bunların biri mənafeyi-şəxsiyyəsinə mənafeyi-ümumiyyəni fəda edən hökuməti-sabiqə, ikincisi də inqirazımızı [süqutumuzu] bəkləyən bir taqım daxili düşmənlərimiz.*

*Bunlar cahan nəzərində hərəkati-milliyyəni gizlətmək və kəndilərini qurtarmaq üçün zaman icabı [zəmanənin ehtiyacından doğan] qüvvətli bir silaha malikdi. Bu silah isə ittihadçılıq iftirası idi. Bizə ittihadçı deyənlər unudurlar ki, hərəkati-milliyyə bütün millət tərəfindən icra edilməkdədir. Əgər işin içində ittihadçılıq olmaq lazım gəlsə, bütün millət ittihadçılıq ilə ittiham edilmiş olar.*

*Sonra həmin surət ilə heç bir firqəyə mənsub olmadığımızı və ittihadçılıqla əlaqəmiz bulunmadığını kainata elan etdik.*

*Hər şeydən əvvəl bunu söyləmək istərəm ki, təşkilati-milliyyənin ənasiri-qeyri-müslimə [müsəlman olmayan ünsürlər] əleyhində heç bir fikri-müzməri [gizli bir planı] yoxdur.*

*Biz xristianların hər dürlü hüquqi-tabeiyyətlərini [vətəndaşlıq hüquqlarını] tamamilə təmin edərək, beynələnasir bir müvazinət və ahəng ehyasını məqasidi-əsliyyəmizdən ədd edəcəyiz [ünsürlər arasında müvazinət və ahəng qurulmasını əsil məqsədlərimizdən biri hesab edəcəyik].*

*Cəmiyyətimiz bir firqeyi-siyasiyyə deyildir. Bu səbəblə, intixabat [seçkilər] əsnasında nə ələlümum [ümumiyyətlə] cəmiyyətin və nə də ələlxüsus [xüsusi olaraq] heyəti-təmsiliyyənin doğrudan-doğruya heç bir fəaliyyət və müdaxiləsi olmayacaqdır. Əgər millət məni məbus intixab etmək [millətvəkili seçmək] arzusunu izhar edərsə, məəlməmnuniyyə [məmnuniyyətlə] qəbul edərəm. Fəqət kəndiliyimdən heç bir təşəbbüsdə bulunmayacağam."*

**Londrada İslam Konqresi**

Londrada bir İslam Konqresi əmələ gəlmişdir. Konqre məqami-xilafətlə [xəlifəlik məqamı ilə] əlaqə peyda etmək istəmişdir. Bu səbəblə aşağıdakı iki teleqraf göndərilmişdir.

Konqre rəisinin xaki-payi-şahanəyə [padşahın ayağının tozuna] teleqrafı və cavabı:

Ətəbeyi-ülyayi-həzrəti-xilafət-pənahiyə [Xilafətin qoruyucusu olan həzrətin uca kandarına] Londrada münəqd [baş tutan] İslam Konqresi rəyasətindən kəşidə edilən [çəkilən] teleqrafnamənin tərcüməsidir:

*"Sünni və şiə və sair millətlərdən mürəkkəb [ibarət], Londradakı Müsəlman Konqresi bu gün zati-həzrəti-padişahiləri üçün təzərröatda bulunduğu [baş əyib itaət etdiyi] kimi, xəlifeyi-müslimin [müsəlmanların xəlifəsi] sifəti ilə zati-hümayunlarına [padşahın mübarək şəxsiyyətinə] qarşı layətəzəlzəl müsadiqətini [sarsılmaz sədaqətini] təyid [təsdiq] eylər.*

*Rəis: Marmaduk Piktholl"*

Zati-həzrəti-padişahinin əmri üzrə tərəfi-saiyi-sədarətpənahidən [vasitəçilik edən Sədrəzəm tərəfindən] də cavabən aşağıdakı teleqrafnamə göndərilmişdir:

*"Məzahibi-müxtəlifeyi-islamiyyədən mürəkkəbən [müxtəlif müsəlman məzhəblərindən ibarət olaraq] Londrada münəqid [baş tutan] Müsəlman Konqresi tərəfindən haqqi-hümayuni-xilafətpənahidə təzərröat və təyidi-təzimatı havi kəşidə edilən [xilafətin sığınacağı olan mübarək padişaha itaətkarlıq və təzim bildirmək üçün çəkilən] teleqrafnamə bilvürud mənzuri-ali buyuruldu [gəlib çataraq uca padşahın nəzərinə təqdim edildi]. Mətbuyi-müfəxxəmim xəlifeyi-müslimin [fəxrlə tabe olduğum müsəlmanların xəlifəsi] əfəndimiz həzrətlərinə qarşı bu surətlə də izhar olunan asari-müxalisətkarı [səmimiyyət nişanələrini] hissiyati-səmimeyi-dəyanətşüari icabatından bulmasıyla [səmimi dindarlıq duyğularının nəticəsi olaraq görməsiylə], nəzdi-cəlili-xilafətpənahilərində [xilafətin sığınacağı olan uca padşahın nəzdində] bilxassə mövcibi-təşəkkür və məmnuniyyət [xüsusilə təşəkkür və məmnuniyyətə səbəb] olduğunun məzkur Konqre əzasına liəclit-təbliğ işarına mübadərət qılındı [deyilən Konqres üzvlərinə təbliğ edilmək məqsədilə bildirilməsinə dərhal təşəbbüs edildi]."*

## TƏTİL GÜNLƏRİ XƏBƏRLƏRİNDƏN

**Kolçak münhəzim [məğlub] edilmiş**

Son vürud edən [gələn] bolşevik teleqrafnamələrində denilir ki, təşrini-əvvəlin [oktyabrın] 16-dan təşrini-saninin [noyabrın] 11-nə kimi davam edən son hücumumuz zamanı Şərq cəbhəsi qoşunları 500 fərsəx xətti-müstəqim ilə [düz xətt boyunca] irəliləmişlərdir. Vəsət [orta hesabla] olaraq qoşunlarımız gecə və gündüzdə 20 fərsəx yürüş etmişlərdir. Tərəfimizdən 15 min mürəbbe [kvadrat] fərsəx bir dairə işğal edilmişdir ki, içində 5 böyük şəhər də vardır.

16,800 əsir, bir çox tüfəng, 261 ədəd mitralyoz, 10 ədəd top, 800 at, 500,000 fişəng, 360 araba, 5 milyon puda qədər taxıl zəbt və qənimət etmişik. Bunlardan əlavə, bir firqə [diviziya] ştabı və 4 alay ştabları dərdəst edilmişlərdir [ələ keçirilmişdir].

**Kolçak padşahlığının sonu**

Saratov - Krasnoyarskdan vürud etmiş [gəlmiş] bir bolşevikin rəvayətinə görə, Semipalat əyalətində olan kolçakçılar köylülər üzərinə ağır vergilər vəz edərək [qoyaraq], əhalini qarət edirlər. Bundan dolayı köylülər üsyan edərək, köylərə ərzaq və heyvan aparmaq üçün gələn Kolçak əsgərlərini məhv edirlər. Amur nahiyəsinin hər tərəfində dəxi üsyan qalxmışdır. Amur nahiyəsi komandanı yapon generalı Yamada əmrnamə vermiş ki, hansı köydə bolşevik müşahidə edilsə, o köy yapon qitəatı [hərbi hissələri] tərəfindən təxrib edilərək yandırılacaqdır.

**Denikin arxasında**

Denikin arxasında Yaşıl ordu tərəfindən Qara dəniz səvahili [sahilləri] Soçiyədək işğal edilmişdir. Zəbt edilən yerlərin həpsində şuralar təşkil edilmişdir. Əhali Şura hökuməti ilə hüsnəlaqədədirlər. Krımsk və Labinsk mövqiflərinə [stansiyalarına] hücum olunaraq, bir çox mühimmati-hərbiyyə [silah-sursat] və ərzaq zəbt edilmişdir. Yaşıl ordunun miqdarı 20 minə qədərdir.

Ukraynadan yetişən xəbərlərə görə, [Nestor İvanoviç] Maxno qitəatı [birlikləri] Denikin arxasında Mariopol, Berdyansk və Aleksandrovsku işğal edib Taqanroq ətrafında bir neçə mövqif ələ gətirmişlərdir.

**Lloyd Corc Rusiya məsələsi haqqında**

Nauen - Rusiya məsələsi haqqında Lloyd Corc bərvəchi-ati [aşağıdakı kimi] bəyanatda bulunmuşdur:

Rusiyada sülh bərpa edilməyincəyə qədər ümumi sülh mümkün deyildir. Rusiyada bu tezlikdə sülh olmasına da ümid azdır. Bir neçə gün irəli Rusiya məsələsinin tezlikdə həll oluna biləcəyinə ümid etmək olardı. Fəqət şimdi yeni qanlı mübarizələrlə hesablaşmaq lazımdır. Yudeniçin Petroqrada olan hücumu müvəffəqiyyətsiz qaldı. Moskva üzərinə yürüş edən Denikin artıq kirimişdir. Cəsarətlə deyə bilərəm ki, bolşevizmi artıq heç bir şeylə məhv etmək mümkün olmayacaqdır. Binaənileyh [ona görə], Rusiyada sülh bərpa edilməsi üçün büsbütün başqa tədabir ittixaz [tədbirlər görmək] etmək lazımdır.

**Türküstanda inqilab bayramı**

Daşkənd - İnqilabın ikiillik bayramı Daşkənddə mütəntən [təntənəli] bir surətlə keçmişdir. Neçə fərsəxlərlə uzanmış nümayişçilər içində 10 minlərcə ruslar və müsəlmanlar iştirak etmişlərdir.

Fövqəladə bir mənzərə tərsim edən [meydana gətirən] 10 minə qədər müsəlman çocuqlarının nümayişə iştirak etməsi olmuşdur. Nümayişçilər Lenin və Trotskinin rəsmlərini gəzdirmişlərdir.

**Don kazakları ilə Denikin arasında ixtilaf**

"Kiyevskoye exo" qəzetəsi xəbər verir ki, Denikin ilə Don kazakları arasında ixtilaf çıxmışdır. Donun hərbi dairələrində qərara alınmışdır ki, Don əyaləti muxtariyyətindən ötrü Denikinə ultimatum versinlər.

**Avstriyada aclıq**

Nauen - Avstriyada aclıq güclənir. Un məkulatı [ərzağı] büsbütün buraxılmayır.

**Qaliçədə aclıq**

Nauen – Qaliçənin bəzi məhəllərində [yerlərində] aclıq olduğundan, əhali nümayişlər yapır. Nümayişçilər çörək, şəkər və kömür verilməsini tələb edirlər. Varşava və Lodzdan həmçinin xəbər verirlər ki, oralarda da çörək qıtlığı müşahidə edilmədədir.

**Krımda müsəlmanların həbsi**

Ağməsciddə [Smferopolda] Tatar Qurultayının bütün başçıları həbs edilmişdir. Məhbuslar içində bir türk tələbəsi və Bağçasaray Bələdiyyə rəisi Xəttatov da vardır.





**Çin və Cəmiyyəti-Əqvam**

Cəmiyyəti-Əqvamda [Millətlər Cəmiyyətində] mövqeyi-müzakirəyə qonulacaq məsələlərdən birincisi Çin məsələsi olacaqdır.

Çin hökuməti Şandunun yaponlardan geri alınmasını tələb etdiklərindən maəda [əlavə], İngiltərə daireyi-nüfuzunda olan Şanxay və avropalılar əlinə keçmiş qeyri iskələlərdə də [limanlarda da] Çin imperiyası hakimiyyətinin iqamə edilməsini [qurulmasını] tələb edirlər. Çin kəndi hakimiyyətinin başqa dövlətlər kimi müstəqil olmasını tələb edərək, əvəzində əcnəbi təbəələrini himayə edəcəyini vəd edir. Çin israr edəcək ki, o, vəhşi bir millət olmayıb öz işlərini özləri idarə edə biləcəklərindən, Çin iskələlərinin beynəlmiləl elan edilməsinə və əcnəbi dövlətləri kontroluna ehtiyacı yoxdur.

**D'Annunsio Fiumeni buraxır**

Vitebsk - İtaliya qəzetələrinin əxbaratına [xəbərlərinə] görə, D'Annunsio qoşunları Fiumedən çıxırlar.

İngiltərə İtaliyanı Cəmiyyəti-Əqvamdan xaric etməklə təhdidatda bulunmuşdur. Bolqariyaya İngiltərə qoşunları vürud etmişlər [daxil olmuşlar] ki, lazımi təqdirdə italyanlara qarşı əməliyyatda bulunsunlar.

**Paris qaranlıq içində**

Lion - Parisdən xəbər verirlər ki, kömür fiqdanından [yoxluğundan] dolayı "Ouest Diummo" elektrik kompaniyası zavodlarının fəaliyyəti kəsilmiş və Paris qaranlıq içində qalmışdır.

**VÜKƏLA ŞURASINDA**
**[NAZİRLƏR KABİNETİNDƏ]**

Ticarət və Sənaye nazirinin Ceyranbatan nam [adlı] dövləti duz gölünün icarəyə verilməsi haqqındakı təqriri isteması [rəsmi məktubunun dinlənilməsi] nəticəsində, Saray kəndi yaxınlığında Ceyranbatan duz gölünün bir sənə müddətincə icarəyə verilməsinin təsdiq edilməsi qərara alınmışdır.

* * *

Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] nazirinin Gəncə Bələdiyyə İdarəsinə 49,074 manat 50 qəpik buraxılması haqqındakı təqriri isteması nəticəsində, istənilən məbləğin Nəzarət ixtiyarındakı istiqrazdan buraxılmasına icazə verilməsi qərara alınmışdır. Məbləğ səpmə yatalağa mübtəla olmuş qaçqınlara müavinəti-tibbiyyəyə sərf olunacaqdır.

* * *

Ticarət, Sənaye və Ərzaq nazirinin Bakı neftçiləri vergisinin miqdarı təyini haqqındakı təqriri isteması nəticəsində, qanun layihəsinin təsviblə [bəyənilməklə], təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılması qərara alınmışdır.

* * *

Maliyyə nazirinin Azərbaycan Dövləti Bankı, Maliyyə Nəzarəti İstiqraz şöbəsi və Dövləti Əmanət Kassaları üçün Tsaturov qardaşları evinin təmiri üçün 185 min manat buraxılması haqqındakı təqriri isteması nəticəsində, istənilən məbləğin 80 milyonluq fonddan buraxılması qərara alınmışdır.

* * *

Səhhəti-Ümumiyyə nazirinin kinin alınması üçün məbləğ təxsisi [ayrılması] haqqındakı təqriri isteması nəticəsində,

80 milyonluq fonddan 500 min manat buraxılması qərara alınmışdır.

* * *

Maarif nazirinin, Dövləti Darülfünun müəllimlərinə bir aylıq maaşlarının verilməsi haqqındakı təqriri isteması nəticəsində, məruzənin qəbulu qərara alınmışdır.

* * *

Maliyyə nazirinin, İvan Tokarov namın Bakı Gömrüyü qərarının Maliyyə Nəzarəti tərəfindən təsdiqi əleyhinə verdiyi etiraz haqqındakı təqriri isteması nəticəsində, etirazın açıq buraxılması qərara alınmışdır.

* * *

Ümuri-Xeyriyyə və Nafiə nazirinin Ermənistan-Gürcüstan təriqi [yolu] ilə Azərbaycana gələn qaçqınlara para buraxılması haqqındakı təqriri isteması nəticəsində, Gürcüstandakı Azərbaycan siyasi nümayəndəliyinə qaçqınlara müavinət üçün Nəzarət ixtiyarındakı məbləğdən 50 min manat buraxılmasına icazə verilməsi qərara alınmışdır.

* * *

Xariciyyə nazirinə məmaliki-əcnəbiyyə [xarici ölkə] pulu buraxılması haqqındakı təqriri isteması nəticəsində, Maliyyə Nəzarətinə Xariciyyə nazirinin tələbi üzərinə lazımi qədər məmaliki-əcnəbiyyə pulu buarxılmasının tapşırılması qərara alınmışdır.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

Maarif Nəzarəti Vükəla Şurası tərəfindən təsvib [təsdiq] edilmiş, məmaliki-əcnəbiyyədən gətiriləcək kitab və mətbuatın rüsumdan azad edilməsi haqqındakı qanun layihəsini Məclisi-Məbusana idxal etmişdir.

* * *

Məsai Nəzarəti [Əmək Nazirliyi] Ticarət və Sənaye və Ərzaq Nəzarətinə müraciətlə məlum etmişdir ki, Nəzarətin qərarı mövcibincə [qərarına əsasən], Tağıyev fabrikası fəhlələrinə müdiriyyət 1294 nəfərlik bəzzaziyyə malı [parça] və iplik verməkdən imtina etmişdir.

Təliqənin [məktubun] sonunda Nəzarət tədabir ittixazını [tədbirlər görülməsini] rica etmişdir.

* * *

Məsai Nəzarəti Bakı general-qubernatoruna müraciətlə məlum etmişdir ki, əldə edilmiş məlumata nəzərən Nağıyev namın [adlı şəxsin] Tağıyev fabrikasında bulunması qəbul ediləmməz. Binaənileyh [ona görə], Nəzarət tezliklə onun fabrikadan çıxarılmasını rica etmişdir.

**Bahalığa çarə**

Bakıda bahalığın günü-gündən tərəqqi etməsini nəzərə alan Ticarət və Ərzaq Nəzarəti bu günlərdə bahalığın qarşısını almaq üçün bir çox təşəbbüsatda bulunmuşdur. Böylə ki, şəhərin bir çox məhəlləsində əhali miyanında [arasında] girvənkəsi 6 manatdan da əskik olmaq şərti ilə təqsim etmək [paylanmaq] üçün Kooperasiyaya gündə 750 puda qədər və Mərkəzi Ev Komitəsinə dəxi o miqdarda ətmək (çörək) buraxacaqdır.

Həmçinin, mədən rayonlarında (Sabunçu, Ramanı, Bibiheybət, Qara şəhər, Ağ şəhərdə) əmələlərə paylamaq üçün hələlik 500 puda qədər un buraxılmışdır.





Şəhərdə əhaliyə nə yerdə çörək paylanacağı bu günlərdə qəzetələrdə elan ediləcəkdir.

Bundan əlavə, bu günlərdə məzkur [adı çəkilən] Nəzarətin qeyri şəhərlərdəki vəkilləri Bakıya Nəzarət adına külli miqdarda taxıl göndərməkdədirlər.

**Batumdan gələn şeylərin paylanması**

Ticarət və Ərzaq Nəzarətinin Batumdan aldığı 50 min pud şəkər Bakıya varid olub [çatıb], bu günlərdə məzkur [deyilən] miqdardan əhaliyə paylamaq üçün Quba Bələdiyyə nümayəndəsi Əliabbas bəy Əlibəyova iki vaqon, Göyçay mahalı nümayəndələri Hacı Mirtacəddin Haşımov və Nəsrəddin Kərimova iki vaqon, Gəncə Bələdiyyə nümayəndəsi Ağası bəy Ağasıbəyova 7 vaqon, Şəki Bələdiyyə nümayəndəsi Əliəsgər bəy Axundova 3 vaqon, Zaqatala nümayəndəsi, Ticarət Nəzarətinin vəkili Kalacova 2 vaqon şəkər buraxılmışdır.

Bakı, Cavad, Lənkəran, Şuşa, Şamaxı, Cavanşir, Ərəş, Qazax şəhər və mahal əhalisinə də məzkur şəkərdən paylamaq üçün müəyyən miqdarda ayrılmışdır.

## PAPA MÜMƏSSİLİ-RUHANİSİNİN VÜRUDU

Noyabrın 15-ci şənbə günü saat 4-də katolik məqami-tacidarisinin müməssili-ruhanisi [katolik taxt-tacının ruhani nümayəndəsi] Antuan Delabuş həzrətləri Bakıya vürud etmişdir [gəlmişdir].

İstasyonda Bakı Roma katolik heyəti-ruhaniyyəsi ilə erməni qriqor heyəti-ruhaniyyəsi vəkilləri və məhəlli [yerli] fransız koloniyasının vəkili və Bakı fransız konsulu və kəza [həmçinin] məhəlli Lehistan [Polşa] koloniyasının müməssili [nümayəndəsi], Azərbaycan Məclisi-Məbusanı əzasından [üzvlərindən] Vonsoviç, Krinski və Belinski və gürcü konsolu doktor Alşibaya və Şöməndüfər [Dəmiryolu] İdarəsinin Bakı istasyonunun ali məmuru bulunduğu halda Antuan Delabuş həzrətləri istiqbal edilmişdir [qarşılanmışdır].

Papa məqami-tacidarisinin müməssili-ruhanisini istiqbal üçün ayrıca da şöməndüfər inzibat qulluqçularından da qaraqollar güzərgaha buraxılmışdır. İstasyonda Antuan Delabuş həzrətlərinə məhəlli Lehistan koloniyasının rəisi Rılski cənabları tərəfindən bir təam dəxi ehzar edilib [hazırlanıb] təqdim olunmuşdur.

Dün dəxi ayrıca saat 10-da Bakı Roma katolik məhfəli-ruhanisində [ruhani yığıncağında] qüdsiyyətli [müqəddəs] Antuan Delabuş həzrətlərinin hüzuru [iştirakı] ilə mütəntən [təntənəli] bir inaqurasiya [andiçmə] mərasimi yapılmışdır. Bədəhu monsenor Delabuş Məsihə ibadəti-ruhaniyyə edib, mərasimi-mütəntənə ilə də "liturgiya" mərasimi-diniyyəsi icra edilmişdir.

Müməssili-ruhaninin paytaxtımıza təşrifini təbrik edərək, katolik Azərbaycan vətəndaşlarımızın da bu münasibətlə məsudiyyəti-ruhaniyyələrini təmənni eyləriz.

## BAKI XƏBƏRLƏRİ

**Kabinə təşkili**

Verilən məlumata görə, Kabinə təşkili qurtarmaq üzrədir. Kabinə aşağıdakı qərar üzrə tərtib verilmişdir:

Rəisi-vükəla və Daxiliyyə naziri Nəsib bəy Yusifbəyli;

Hərbiyyə və Bəhriyyə [Donanma] naziri general Səməd bəy Mehmandarov;

Xariciyyə naziri Fətəli xan Xoyski;

Maliyyə, Ticarət və Sənaət [Sənaye] naziri Məhəmmədhəsən Hacınski;

Hüquq naziri Xəlil bəy Xasməmmədov;

Maarif naziri Rəşid xan Qaplanov;

Türüq-Məabir [Rabitə-Nəqliyyat], Posta və Teleqraf naziri Xudadad bəy Məlikaslanov;

Ərazi və Ümuri-Nafiə [Torpaq və Sosial Təminat] naziri Musa bəy Rəfiyev;

Dövlət Müfəttişi Qazı Əhməd bəy Məhəmmədbəyov.

Başqa portfellər yuxarıda zikr edilən nəzarətlərə iltihaq ediləcəkdir [yuxarıda adları çəkilən nazirliklərə birləşdiriləcəkdir].

Kabinəyə sosialistlərin dəxi daxil olmaları ehtimalı vardır. Bunlarla bu xüsusda müzakirat aparılır.

Hərgah yeni maneələr çıxmayacaq olarsa, düşənbə [bazar ertəsi] günü təşrini-saninin [noyabrın] 17-də yeni kabinə təşkili xüsusunda hökumətin bəyannaməsini gözləmək oar.

**Oğurluq**

Cümə günü təşrini-saninin 14-də gecə Bakı sakini Kərbəlayı Həmidin "İsmailiyyə" binasında olan anbarının qıfılı sındırılıb, altı tay şahbalut [şabalıd] və 30 dənə boş torba aparılmışdır.

**Xarici xidmətçisi**

Ərazi Nəzarəti xidmətçilərindən Qusakov nam bir rus Nəzarətdə [Nazirlikdə] olan başqa xidmətçilərdən para toplamış ki, onlara Ərzaq Nəzarətindən parça və qeyri ərzaq alsın. 150,000 (yüz əlli min) manat para topladıqda, paraları götürüb fərar etmişdir. Evində isə bir siyahı qoyaraq, bir qaç nəfərin parasını kəndisinə verməyi əyalına tapşırmış və demişdir ki, kəndisi Petrovska [Mahaçqalaya] gedir, hər vaxt övdət edərsə [qayıdarsa], başqalarının da paralarını verər. Evi təftiş etdikdə bir qədər parça və 3-4 kisə un bulunmuşdur.

**Parlamanda bufet**

Düşənbə [bazar ertəsi] günündən başlayaraq Parlamanda məbus və əhali üçün bufet güşad ediləcəkdir [açılacaqdır]. Bufetdə hər növ yeməli şeylər satılacaqdır.

**Əhaliyə çörək**

Bu gündən etibarən Ticarət, Sənaye və Ərzaq Nəzarəti Sentrodoma [Mərkəzi Evlər İdarəsinə] un verir ki, bu unu bişirib kooperasiyalara versin ki, girvənkəsi beş manatdan kooperasiya dükanlarında əhali üçün satılsın. Bundan başqa Sabunçu, Balaxana mədən dairələrində və köylərdə də kooperasiya dükanlarından həmin bu qiymətə çörək bişib satılacaqdır.

**Konka yolunda**

Bələdiyyə İdarəsinin Kontrol şöbəsi Bələdiyyə İdarəsinə müraciətlə məlum etmişdir ki, konka yollarında bilet verənlərin sərnişinlərə bilet verdikləri vaxt konkanın nərəyə getməsi haqqında məlumat vermədiyindən, daima sərnişinlərlə, xüsusən çocuqlarla ixtilaf çıxmaqdadır. Binaənileyh [ona görə], şöbə bu haqda konka yolu icarədarlarına düsturüləməl [təlimatnamə] verilməsini rica etmişdir.





**Həbsxanalar üçün su**

Ədliyyə Nəzarəti Bələdiyyə İdarəsinə məlum etmişdir ki, Vükəla Şurasının qərarına məbni [Nazirlər Kabinetinin qərarına əsasən], həbsxanalara Bələdiyyə İdarəsi tərəfindən buraxılmış suyun qiyməti Azərbaycan hökumətinin Bakı şəhərinə girməsi günündən etibarən olmalıdır. Binaənileyh [ona görə], o vaxtdan buraxılmış su haqqında məlumat verməlidir.

**"Filma" və Bələdiyyə idarəsi**

"Filma" səhmdaran [səhmdarlar] cəmiyyəti Məclisi-Məbusanın 8 təşrinisanidə qəbul etdiyi teatro vergilərinin 50 faiz azalması haqqında qəbul etdiyi qanun layihəsinə istinadən, şəhər vergilərinin azalmasını rica etmişdir.

## FİRQƏLƏR VƏ CƏMİYYƏTLƏR

**Qaçqınlar**

İrəvan qaçqınlarından Rəhim İsgəndər oğlu nam bir nəfər bir əyalı və üç çocuğu ilə bərabər müavinət edilmək üçün Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"a müraciət etdikdə, firqə məzkurları [deyilən şəxsləri] Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinə sövq etmişdir.

**Qubada**

Ticarət, Sənaye və Ərzaq Nəzarəti, Mərkəzi "Müsavat"a xəbər vermişdir ki, Nəzarət Quba şəhəri Bələdiyyə İdarəsinə sülh məhkəməsi və Bələdiyyə təhtiidarəsində [tabeçiliyində] təşkil ediləcək komisyon vasitəsilə Quba şəhəri sakinlərinə və ətraf köylər əhalisinə paylamaq və hər nəfərə bir girvənkə verilməklə, girvənkəsi 17 manatdan təqsim edilmək [bölüşdürülmək] üçün 2,000 (iki min) pud şəkər buraxmışdır. Quba mahalı kəndi hissələrini almaq üçün Quba şəhəri Bələdiyyə İdarəsinə müraciət etməlidir.

**Hacıqabulda**

Hacıqabul istasyonunda təşrini-saninin 8-də axşam saat 4-də "Müsavat"ın şöbəsi iclası vüqu bulmuşdur [baş tutmuşdur]. Ağahəsən Mirzəzadənin sədarəti və Cavanşir İsazadənin katibliyi ilə işbu məsələlər müzakirə edilib, qət olunmuşdurlar:

1) Bahalıq münasibəti ilə dəmiryol fəhlələri üçün fəhlələrə ucuz qiymətə un buraxılsın.

2) Bayram Həzrətqulu oğlu şöbəyə verdiyi ərizəyə əncam verilmək üçün ərizə Mərkəzi "Müsavat"a göndərilsin.

3) İstasyon dükançısı çox bahaçı olduğundan, şöbə sədri ona nəsihət etməlidir, bir nəticə hasil olmazsa, bu xüsusda da Mərkəzi "Müsavat"a müraciət edilsin.

4) Qış hülulu [gəlib çatması] münasibəti ilə Mərkəzi "Müsavat" dəmiryol fəhlələri üçün ayaqqabı verilməsi haqqında təşəbbüsatda bulunması rica olunsun.

**"Müsavat"a hədiyyə**

"Müsavat" firqəsinin Bakı Komitə üzvündən Yusif Ziya Talıbzadə əfəndi əvvəlcə təlif etmiş olduğu [yazdığı] "Xalid bin Vəlid" və "Ərmanusə" nam drama-

ları ilə bərabər, bu yaxınlarda təlif etdiyi “Tumanis xatun” nam dramasını firqəyə ianə etmişdir.

Bundan müqəddəm [qabaq] İsa bəy Aşurbəyli əfəndi tərəfindən firqəyə təqdim edilmiş “Azərbaycan” nam pyesası “Müsavat” firqəsinin ixtiyarında olduğu və bundan sonra bu kitabları oynayacaq cəmiyyətlər “Müsavat” firqəsindən icazə almağa borclu olduqlarını “Müsavat”ın Bakı Komitəsi ümuma bildirir.

### “Müsavat”da

**Qaçqınlar**

Sisyan nahiyəsi Qarakilsə köy hərbzədələrindən Həsən Əbdül oğlu valideyni vəfat etdiyindən Cəmiyyəti-Xeyriyyə vasitəsi ilə yetimlər yurduna yollanmışdır.

**Ermənikəndində**

Ermənikəndində mülk sahibləri evləri söküb əşyasını satdıqları və bu barədə əldə lazımi məlumat bulunduğundan, Müsavat Komitəsi bu barədə təşəbbüsatda bulunmağı Bakı valisinə, Bələdiyyə İdarəsinə təklif etmişdir.

**Firqə qurultayı komisyonu**

“Müsavat”ın 2-6 dekabrda vaqe olacaq qurultayı üçün hazırlıqda bulunmağa Qulamrza, Hilal [Bağırzadə], Mirzəbala [Məhəmmədzadə], Əsədulla [Məhəmmədzadə], Əbdülvahab [Məhəmmədzadə] və Cəfərdən ibarət bir komisyon təşkil edilmişdir.

**Əsgəri nəğmələr**

Təşrini-saninin 10-da vaqe olan “Müsavat”ın Bakı Komitəsi iclasında Məhəmmədzadə Mirzəbala növbədənxaric olaraq təklif etmişdir ki, əsgərlərin əlan [hal-hazırda] oxumada olduqları və ayrı-ayrı şəxsləri mədh edən nəğmələrin önü alınsın. Əsgəri nəğmələr Cümhuriyyət və istiqlaliyyət əsasına uyğun və düz olsun. Bir də, zirehlilərə və qeyri şeylərə qoyulan adların türk qəhrəmanları adıyla olmasını, fars adlarının istemal edilməməsini [işlədilməməsini] təklif etmişdir. Təklif qəbul edilib fraksiyaya yollanmışdır.

**Müsavatçı tələbə və mütəallimlər**

Türk Ədəmi-Mərkəziyyət firqəsinə mənsub türk tələbə və mütəallimləri [şagirdləri] yeni komitə seçib fəaliyyətə başlamışlardır. Komitəyə bunlar daxil olmuşdur: Atayev, Məhəmmədzadə Mirzəbala, Məhəmmədzadə Əbdülvahab, Bədəlbəyov Müseyib, Ələsgər Ələkbərzadə və Qurban Musazadə.

### Cəmiyyəti-Xeyriyyədə

**Qənd, çay**

Dünkü gün Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi qaçqınlara qənd, çay və əlbisə [paltar] təqsim etmişdir [paylamışdır].

**Yalamada**

Yalamaya bir çox qaçqınlar toplanıb fəna bir halda olduqlarından, Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi hər firqə və cəmiyyətlərdən birər nümayəndə intixab edilib [seçilib] qaçqınlara nasıl müavinət edilməsi lazım gəldiyi üçün Yalamaya göndərmək təşəbbüsatındadır.





**İanə**

Məşhədi Məhəmmədhüseyn Molla Əbdülhüseyn oğluna 250 manat, İsmayıl Həsən qızına 150 manat Cəmiyyəti-Xeyriyyə ianə verib və Molla Əbdürrəhim Hüseynəli oğlunu xəstəxanaya göndərib, 3 nəfər çocuqlarını yetimlər yurduna göndərmişdir.

**Çörək verməmişlərdir**

Mehdiqulu Tağızadə qaçqınlardan saxlamaq üçün götürdüyü Əbdürrəzzaq Qəhrəman oğlunu və Əmi Manaf oğlu – Rzabala Xələf oğlunu geri vermişlərdir.

**“İslam” cəmiyyəti iclası**

İşbu noyabr ayının 17-də düşənbə [bazar ertəsi] günü axşam saat 5-də “İslam” istehlak cəmiyyəti bütün üzvlərini 3-cü Paralelni caddədə 152/32 nömrəli evdə olacaq iclasa dəvət edir. Müzakirə olunacaq məsələlər əhəmiyyətli olduğundan, ümum üzvlərin iclasa gəlmələri təmənna olunur.

### GÜRCÜSTAN XƏBƏRLƏRİ

**Yeni cəmiyyət**

Tiflisdə “Gürcü Müsəlmanlara Himayət Cəmiyyəti” adında yeni bir cəmiyyət təşkil edilməkdədir. Cəmiyyətin nizamnaməsi tərtib edilib mahal məhkəməsinə təsdiqdən ötrü təqdim edilmişdir. Cəmiyyətin müəssisləri Rəcəb Nijeradze (gürcü müsəlmanlarından), Surquladze və Dumbadzedən ibarətdir.

**Qanunların baxılması**

Hüquq Nəzarətində təcili surətdə Nəzarət cənbində [nəzdində] cari qanunların baxılmasından ötrü xüsusi bir komissiya təşkili üçün dekret vermək layihəsi hazırlanmaqdadır. Komissiya 12 nəfərdən ibarət – sədr, 5 nəfər cinayət və 5 nəfər mülki qanunların baxılması üçün tərtib ediləcəkdir. Layihəyə nəzərən, komissiya üzvləri hökumət tərəfindən təyin edilməlidir.

**Təbid**

Hökumət əmri ilə bu günlərdə qapanılmış olan “Sosial-demokrat” və “Znamya revolyutsii” qəzetələrinin müdirləri [Arşak] Zurabov və Pirumov Gürcüstan torpağından təbid [sürgün] edilirlər.

### ERMƏNİSTANDA

**Dövləti istiqraz**

Çikaqo Bankirləri İttifaqı Ermənistana 50 milyon borc verməyə razı olmuşdur. Bu pullara Amerikadan lazımi ərzaq və köy təsərrüfatı, ticarət və sənaət [sənaye] işlərini bərpa etmək üçün mayehtac [zəruri şeylər] alınacaqdır.

Bu istiqraz müharibənin ağır zərbələrini yemiş Ermənistan əhalisinə böyük köməklik edə biləcəkdir və əlavə olaraq, istiqrazın bir də siyasi əhəmiyyəti vardır.

“Aşxatavor” bu fəqərəni [hadisəni] bərvəchi-zir [aşağıdakı kimi] təsvir edir:

*“İşbu istiqraz maddi əhəmiyyətdən başqa, həmçinin siyasi əhəmiyyəti də haizdir [daşıyır].*

*Hərgah Çikaqo sərvətdarları sərvətlərinin özlərinə qayıdacağına mütməin [əmin] olmasaydılar, milyarlarını Ermə-*

*nistan Cümhuriyyəti ixtiyarına buraxmazdılar. Onun üçün, yəni milyarları təmin etmək üçün də lazımdır ki, Ermənistan Cümhuriyyətinin istiqlalı da təmin edilsin."*

Qəzetənin rəyinə görə, işbu istiqrazın başqa Zaqafqaziya cümhuriyyətlərindən ötrü də böyük əhəmiyyəti vardır:

*"Əzim məbləğlərə alınan malların Ermənistana idxalı yəqin ki, ümumi bazara hüsn-təsir edəcək və bütün Zaqafqaziyada hiss edilən kəskin böhranı yüngülləşdirə biləcəkdir."*

**Venizelos Ermənistan haqqında**

Yunan hökuməti rəisi Venizelos qəzetə mühərriləri ilə müsahibədə bulunduqda söyləmişdir ki:

*"Hərgah bu tez zamanda Türkiyə məsələsi həll edilməzsə və mandatlı bir dövlət tərəfindən Ermənistan işğal edilməzsə, o zaman Ermənistanda bir erməni də qalmaz. Türklər özlərini Asiyayi-Süğrada [Kiçik Asiyada, Anadoluda] və Ermənistanda məğlubədd [hesab] etməyirlər. Onlar daima yunan qoşunlarının qabaq cəbhələrinə təərrüzlər [hücumlar] yapırlar. Yunan qoşunları işğal etdiyi vilayətlərdə əhval sükunətbəxşdir. Lakin Müttəfiqin əsakiri [Müttəfiq əsgərləri] tərəfindən şimdiyədək işğal edilmiş Asiyayi-Süğra vilayətləri haqqında bu sözü söyləyə bilmərəm. Türk əsakirinin bir çoxu hal-hazırda dəstələr təşkil edib müdafiəsiz (?) əhali üzərinə təərrüzdə bulunurlar. Asiyayi-Süğra məsələsini bilatəxir [təcili] və qəti olaraq həll etmək lazımdır. Hərgah bizə mən' [qadağan] etməsəydilər, intizam bərpa etmək və təhdidat altında bulunan xristian əhalisini müdafiə eyləmək üçün biz bəs qədər qoşun verə bilərdik."*

## TEATRO VƏ MUSİQİ

**Dövləti Teatro Heyəti**

Səşənbə [çərşənbə axşamı] günü noyabrın 18-i ərbəin ilə Peyğəmbər vəfatı (bist həştüm) arasında olduğuna görə tamaşa olmayacaqdır.

Cümə günü noyabrın 28-i Peyğəmbər vəfatına təsadüf etdiyindən, o günü də tamaşa olmayacaqdır.

Gələcək tamaşa səşənbə günü noyabrın 25-də "Leyli və Məcnun" operası mövqeyi-tamaşaya qoyulacaqdır. "Leyli-Məcnun" operası indidən hazırlanmaqdadır. Müslim bəy Maqomayev dirijor dəvət edilmişdir. "Leyli-Məcnun" üçün xüsusi dekorasiya və paltar hazırlanmaqdadır.

Xor və xoristkalar dəvət edilmişdir. Opera mövsümünün ibtidası [əvvəli] olduğuna görə, "Leyli-Məcnun" operasının təntənəli bir surətdə olmasına diqqət edilir. Təfsilat afişalarda göstəriləcəkdir.

* * *

Malakan caddəsindəki Pel-Mel teatrosunda təşrini-saninin 28-də bir müsəlman milli konserti tərtib veriləcəkdir. Bu konsertdə məşhur müsəlman xanəndələrindən Cabbar [Qaryağdıoğlu], Seyid [Şuşinski], Ələsgər Abdullayev, Məhəmmədhənifə Qasımov, Qurban [Pirimov], Şirin [Axundov], Məhəmmədəli və başqaları iştirak edəcəkdirlər.

Böylə bir konsert şəhərimizdə əvvəlinci dəfə tərtib verildiyindən, tamaşası mənfəətdən xali [mənfəətsiz] deyildir.





## POÇTA QUTUSU

Gürcüstan Cümhuriyyətində olan müsəlman məktəblərinin müfəttişi (inspektoru) M. R. Əliyev cənablarına:

İdarəyə gələn bütün məktub və məqalələr idarənin müayinə və tədqiqi ilə dərc və nəşr edildiyindən və heç bir məktub və məqaləni eynən dərc etmək qeydinə idarə tabe olmadığından, mövrud [gəlib çatmış] məktubunuz da bədəttədqiq və təshih [tədqiq və təshihdən sonra] dərc oluna bilər.

**Yük avtomobili ilə**

Şəhərdə körpü və mədənlərdə hər cürə yük və mebellərin nəqliyyatı qəbul olunur.

Naberejni, kontor Əlipaşa Rəcəbov, telefon 43-44.

*14048*

**Yük avtomobili ilə**

Şəhərdə, körpü və mədənlərdə hər cür yük və mebellərin nəqliyyatı qəbul olu-nur.

Ünvan: Merkuryevski küçə, ev nömrəsi 1, kontora Bəradərani-Şahbazov, telefon 29-54.

*14050*

Azərbaycan Dövləti Teatro Heyəti Müdiriyyətinə türkcə və rusca mükəmməl savadı olan bir nəfər mühasibəçi və bir nəfər katib lazımdır.

Həmin savada malik mütəxəssislər (Dumski ploşadda Haşımovun 10 nömrəli mülkündə) Müdiriyyətin kontorunda Zülfüqar bəy Hacıbəyliyə müraciət etməlidirlər.

**Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi S. M. Hamburq**

Təzə işlər, qızıl, kauçuk, platina üzərində dişlər qayırılır. Qəbul olunur saat 9-dan 2-

yədək, 4-dən 6-yadək. Nikolayevski caddə 21, Parlaman qarşısında. Telefon 5-96.

*9056*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları. Qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri.

Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*11449*

**Doktor**
**C. N. Ləmbəranski**

Daxiliyyə və cərrahiyyə naxoşluqlarına müalicə edir. Qəbul olunur gündüzlər 10-dan 12-yədək; axşamlar 5-dən 7-yədək.

Ünvan: Birjavaya küçə 8, telefon 57-30.

*14040*

Satılır buğ gəmisi (parovaya şxuna) “Misri” Kaspi dəryasının qırağında Samur çayının yaxınlığında. Şəraitini səhmdarlar cəmiyyəti “Rıbak” kontorasından (Staropoliseyski küçə, nömrə 4) sormaq olar.

*14030*

**Fürsətdə**
**istifadə ediniz**

Qayət möhkəm və qüvvəli böyük bir yük avtomobili ittifaqən [təsadüfən] ucuz satılır. Orlovski 16, Təhməzov.

*14047*

**Professor Buyneviçin**
**müsəkkər [sakitləşdirici] kabinetinin**
**sabiq assistenti**
**Doktor Q. Musaelyans**

Ürək, mədə, bağırsaq və qeyri daxiliyyə naxoşluqları qəbul edir səhərlər 9-dan 12-yədək, axşamlar 5-dən 7-yədək. Ünvan: Karantinni və Bolşoy Morskoy küçələrin küncündə (Telefonnı küçənin başında). Telefon: 40-22.

*11446*

**N. və S. Adamovların**
**kantorası**

*Bakı, Birjevaya küçəsi 18, telefon 16-60*

Alınıbdır: Emalnı qab-qacaq, ip, veş, çəkmə sapı, yük ipi, corab dəstgahı, mərdanə corablar [kişi corabları], ağ paltar, kostyumlar, yun köynəklər, daraqlar, paltaryuyan sabun, rəng yağı və qeyri mallar. Satış külliyyatlədir.

*14021*

**Elan**

Bakı Şəhər Bələdiyyə İdarəsi bununla elan edir ki, noyabrın 20-də 1919-cu sənədə Ermənikəndində 19-cu lazaretdə olan üç ordu heyəti uşaqlar müalicəxanasına tərtib vermək işi torqa [tenderə] qoyulur. Torqun şəraiti ilə tanış olmaq istəyənlər Şəhər Bələdiyyə İdarəsinə saat 10-dan 2-dək müraciət etməlidirlər.

*Şəhər Bələdiyyə idarəsi*
*T-342*

**“Müsavat”ın ümumi iclası**

“Müsavat” firqəsinin dekabr ayında Bakıda açılacaq ümum firqə qurultayına hər yüz nəfərdən bir nəfər nümayəndə seçmək üçün işbu noyabr ayının 21-də cümə günü gündüz saat 11-də Haşımovun mülkündə “Müsavat”ın Bakı Komitəsində Bakı firqə yoldaşlarının ümumi iclası vaqe olacaqdır. Şəhərdə olan bütün yoldaşların işbu iclasda hazır olmaları təmənna olunur. İclasa gələnlər özləri ilə firqə kartoçkalarını da gətirməlidirlər.

*T-343*

Əbdülhakim Şeyx Əhmədzadəyə Teymurxanşuradan verilmiş pasport itib, etibardan saqitdir [etibarsızdır].

*14055*





Bu gündən etibarən və bu gündən qabaq ümum divanxanaya elan edirəm ki, mənim dilimdən Məşhədi Əbutalıb, Hacıağa Əliməhəmməd oğlu və ya başqası vəkalətnamə (divernes) və ya qeyri sənədat büruzə çıxarsa, saxta və batildir.

*Nənəxanım Hacı Sadıq qızı*
*14051*

**Doktor V. K. Finkelşteyn**

Qulaq, burun, boğaz və cərrahiyyə naxoşluqlarına müalicə edir.

Qəbul olunur səhərlər saat 8-dən 9-adək; axşamlar saat 5-dən 7-yədək.

Telefon 24-70.

Vorontsovski küçə, ev nömrə 4, Parapetin küncündə.

*14052*

**Dükan satılır**

Kolyubakinskaya küçə 31-33, Krasilnikovun evi.

*14054*

***Müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Azərbaycan**
**Darülfünununun açılması**

səh. 347. “1806 fəlakəti”: Prussiya ordularının I Napoleon ordusu qarşısında aldığı ağır məğlubiyyət nəzərdə tutulur.

“Klod Bernar”: qəzetdə soyadı təhrif edilmişdir.

səh. 348. “10 Təmmuz inqilabı”: Türkiyədə İkinci Məşrutiyyətin (Sultanın hakimiyyətini məhdudlaşdıran Konstitusiyanın) elan edildiyi 23 iyul 1908-ci il, rumi təqvimlə 10 təmmuz 1324-cü ilə müvafiqdir.

**Teleqraf xəbərləri**

səh. 351. “Bermont qoşunları”: Ağqvardiyaçılar hərəkatının Pribaltikadakı nümayəndəsi general P. R. Bermondt-Avalovun komandası altındakı qoşunlar nəzərdə tutulur.

səh. 352. “Şahzadə Feyzulla”: I Faysal nəzərdə tutulur.

**Türkiyədə**

səh. 354. “Əyan”: Osmanlı Parlamentinin yuxarı palatası olan Əyan Məclisi nəzərdə tutulur; Əyan Məclisinin üzvləri padşah tərəfindən təyin edilirdi.

“Çürüksulu Mahmud paşanın İstanbul qəzetələrində görülən bəyanatı”: bu bəyanat “Təsviri-əfkar” qəzetinin 31 oktyabr 1919-cu il tarixli nömrəsində yayımlanmışdır.

səh. 355. “Ermənilərin mütalibati-müfritəsini [ifrat tələblərini] qəbul etməksizin, kəndilərinə bir təshihi-hüdud [sərhəd düzəlişi] bəxş edilə bilər.”: Ermənilər lehinə sərhəd dəyişikliyini mümkün hesab edən bu cümlə Mustafa Kamal Atatürk tərəfindən sərt bir şəkildə tənqid edilmişdir. Atatürk, belə bir güzəştə icazə verilməsinin mümkün olma-

dığını, 17 noyabr 1919-cu il tarixli teleqrafla Çürüksulu Mahmud paşanın nəzərinə çatdırmışdır.

"etat tampon" [état tampon]: bufer dövlət (fransızca)

səh. 356. "Mustafa Kamal paşa deyir ki:": Mustafa Kamal paşanın buradakı bəyanatı, "Azərbaycan" qəzetinin 13 noyabr 1919-cu il tarixli 321-ci nömrəsində də eynilə dərc edilmişdi.

"ittihadçı… ittihadçılıq": Türkiyədə 1913-cü ildə hakimiyyətə gələn İttihad və Tərəqqi partiyası və onun tərəfdarlığı.

**Papa müməssili-ruhanisinin vürudu**

səh. 361. "monsenor": Katolik kilsəsinin ali mənsəbli ruhanilərinin titulu.

"liturgiya": Xristianlığın əsas kilsə ibadətlərindən biri.

**Bakı xəbərləri**

səh. 363. "Filma": Bakıda fəaliyyət göstərmiş prokat şirkəti; 1914-cü ildə səhmdar cəmiyyətinə çevrilmişdi.

**Firqələr və cəmiyyətlər**

səh. 365. "İsmayıl Həsən qızı": qəzetdə belədir.

"3-cü Paralel": Bakıda, indiki Əbilov küçəsi.

**Ermənistanda**

səh. 366. "müdafiəsiz (?) əhali üzərinə": qəzetdə belədir.

**Teatro və musiqi**

səh. 366. "Səşənbə günü noyabrın 18-i ərbəin ilə Peyğəmbər vəfatı (bist həştüm) arasında olduğuna görə": "ərbəin" (hərfən 40-cı) – İmam Hüseyn və tərəfdarlarının şəhid edildikləri Kərbəla hadisəsinin qırxıncı günü, bu gün hicri təqvimdə 20 səfər kimi sabitlənmişdir; "bist həştüm" (hərfən: 28-ci) – Peyğəmbərin vəfatı şiə qaynaqlarına görə hicri təqvimlə 28 səfər günüdür. 18 noyabr (1919-cu il) isə hicri təqvimlə 24 səfər 1338-ci ilə, yəni "ərbəin" ilə "bist həştüm"ün arasına düşür.





**Çərşənbə axşamı, 18 noyabr 1919-cu il, nömrə 324**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 24 səfərül-müzəffər sənə 1338. 18 təşrini-sani 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 3 manat.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Mehdi və Məhəmmədəli Zeynalovlar və Məhəmmədkərim Məhəmmədov kamali-yas və təhəssürlə [böyük bir kədər və həsrətlə] öz qövm-əqrəbalarına və dost-aşnalarına, birincilərin atası və üçüncünün sevgili qayınatası Hacı Məhəmməd-bağır Zeynalovun noyabrın 16-sında vəfat etdiyini xəbər verirlər. Mərhumun pəsməzarı [yas məclisi] İçərişəhərdə 37 nömrəli öz evində 2 gün davam edəcəkdir.

*14058*

## SİRK "MODERN"
### Mübarizənin son günləri

Səşənbə günü noyabrın 18-ndə 1919-ncu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə təşkil edilmiş Fransa güləş mübarizəsinin mabədi [ardı].

Bu gün 3 cift pəhləvan mübarizə edir.

Hamı güləşlər qətidir. 1-nci: Kalişeviç – Muznik; 2-nci: Gənc Əli – Staroşvili; 3-ncü: Yermak – Oleynikov.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında.

Tamaşa başlanacaq 8-də, tamam olacaqdır 12-də.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Elan: Sabah türk pəhləvanı Gənc Əlinin görülməyən benefisi olacaqdır.

*14056*

## ELAN

Azərbaycan Dəmiryolunun İdarəsi bununla elan edir ki, "Büro perevozki"-nin qərardadı mövcibincə [qərardadına əsasən], hər gün 3 nömrəli qatara balıq və balıq məkulatından [məhsullarından] ötrü bir vaqon bağlanacaq bu vaqona mallar Bakı şəhər istasyonunda 150 puda qədər və bu miqdarda da Bakı birinci istasyonunda qəbul olunur.

*T-345*

## SİÇANLARI MƏHV ETMƏKDƏN ÖTRÜ

İnsana, ev heyvanlarına və quşlara zərəri olmayan, siçan tifi dəvası varımızdır. Hər şüşə üstündə tövsiyə də verilir. Qolberq qardaşlarının ximik-bakterioloq laboratoriyasına müraciət etməli. Vorontsovski küçə 14, telefon nömrələri 28-64 və 23-83.

*19057*